# AzTerm terminoloji informasiya sisteminin yaradılmasının konseptual əsasları

Ə.M.Qurbanova

AMEA İnformasiya Texnologiyaları İnstitutu

Terminologiyanın problemləri müxtəlif bilik sahəsi və fəaliyyət dairəsinin mütəxəssisləri arasında böyük maraq doğurur. Dünyada terminologiya fəaliyyətinə istər nəzəri, istərsə də praktik nöqteyi nəzərdən böyük diqqət ayrılır.

Ölkədə terminologiya sahəsində mövcud vəziyyət, bu sahədə obyektiv və subyektiv amillərə əsaslanan problemlər, dilin qorunması və inkişafına dövlət qayğısı, informasiya-kommunikasiya texnologiyalarının imkanlarının bütün sahələrə nüfuz etməsi, dünyada bu sahəyə böyük diqqətin ayrılması, terminologiya fəaliyyəti ilə məşğul olan bir sıra beynəlxalq mərkəzlərin yaradılması, uyğun beynəlxalq standartların işlənməsi, terminoloji bankların, verilənlər bazalarının yaradılması və s. terminoloji fəaliyyətin perspektivlərini ortaya çıxarır.

Bu deyilənlər Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının imkanları nəzərə alınmaqla terminoloji informasiya sisteminin işlənməsini zəruri edir.

Məruzədə terminoloji informasiya sisteminin konseptual sxemi təklif olunur. Sxemə əsasən elmin və texnikanın müxtəlif sahələri üzrə mövcud terminoloji lüğətlər rəqəmləşdirilərək terminoloji məlumat bazasına daxil edilir. Terminoloji məlumat bazasına daxil edilən terminlərin Terminologiya üzrə Beynəlxalq İnformasiya Mərkəzinin (İnfoterm) və Beynəlxalq Standartlaşdırma Təşkilatının (İSO) tələblərinə uyğunlaşdırılması üçün bu təşkilatlarla ikitərəfli əməkdaşlıq təklif olunur.

Təklif olunan modelə əsasən terminologiya sahəsində milli və beynəlxalq standartların qəbul edilməsi, terminlərin bir-birinə uyğunlaşdırılması, harmonikləşdirilməsi üzrə işlərin həyata keçirməsi məqsədəuyğundur.

Terminoloji informasiya bazasına daxil edilən lüğətlərin hər kəs üçün əlyetərliyinin təmin edilməsi və müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların terminoloji bazalarının vahid, ümumi

bir mühitə gətirilməsi məqsədilə veb-portal (azterm.az) yaradılmışdır. Azərbaycan terminoloji informasiya sisteminin Beynəlxalq Terminologiya Şəbəkəsi - TermNet-ə qoşulması təklif olunur ki, bununla da dillərarası terminoloji lüğətlərin hazırlanması işi avtomatlaşacaq, həmçinin, Azərbaycan dilindən başqa dillərə keçən terminləri də aşkarlamaq olacaq.

Terminoloji informasiya sisteminin yaradılması ilə Azərbaycanda terminologiya sahəsində səmərəli elmi araşdırmaların aparılması üçün geniş imkanlar yaranır. Belə ki, terminoloji informasiya bazasına daxil edilən terminlərin statistikası, dinamikası, ekspertizası və s. işlərin həyata keçirilməsi, ən çox hansı bilik sahəsi üzrə yeni terminlərin qəbul olunması reytinqinin aparılması, müəlliflik hüquqlarının qorunmasının təmin olunması, iki və çoxdilli terminoloji lüğətlərin hazırlanmasının avtomatlaşdırılması, terminlərin omonim, sinonim və s. üzrə təsnifatı mümkün olacaq.

Terminologiya sahəsində elektron informasiya mühitinin formalaşması ilə türkdilli ölkələrarası terminlərin harmonikləşdirilməsi üçün də geniş imkanlar açılır.

Belə bir sistemin yaradılması ilə biliklərarası, elmi sahələrarası, fənlərarası və s. münasibətlərin yeni tendensiyalarının aşkarlanması mümkün olacaq. Təklif edilən yeni informasiya modelinin köməyilə sistemdə olan sözlərin azərbaycandilli informasiya fəzasında işlənmə səviyyəsini qiymətləndirmək, beləliklə də terminin arxaik və ya ən çox işlənən olmasını müəyyənləşdirmək mümkün olacaq. Digər tərəfdən xarici dillərdə olan mətnin Azərbaycan dilinə tərcüməsi prosesi də asanlaşacaq. İnternet istifadəçiləri tərəfindən sistemə olan müraciətlərin statistika və dinamikasını, həmçinin istifadəçilərin coğrafiyasını və s. müəyyənləşdirmək mümkün olacaq. Terminoloji reyestrə e-imza texnologiyasının tətbiq edilməsi sistemdən alınan məlumatların dəqiqliyini təmin edəcək.